# Ucrete® MF

## Yüksək performanslı, poliuretan beton səth örtüyü

### MƏHSULUN TƏSVİRİ

**Ucrete® MF** təhlükəli kimyəvilərə qarşı mükəmməl dayanıqlığa malik, unikal xüsusi poliuretan qatranların birləşməsindən yaranmış səth örtüyüdür.

**Ucrete® MF** ümumiyyətlə, quru sahələrdə qoruyucu, düzgün yekun səthi təmin edir.

**Ucrete® MF** qapalı, məsaməli və keçirməzdir. Qida, əczaçılıq və istehsal sənayesi daxilində təmiz otaq, laboratoriya, qablaşdırma sahələri və saxlama sahələri də daxil olmaqla ehtiyac duyulan uzun müddətli və dayanıqlı ideal yekun səthi təmin edir.

**Ucrete® sənaye təyinatlı döşəmələr** 50 ildən çoxdur ki, çox geniş bir sənayedə istifadə olunmaqdadır. **Ucrete® MF** ilə layihələndirilmiş bir çox döşəmə hələ də istismardadır. Təfsilatlı layihə referans siyahısı tələb olunduqda, təqdim olunmaq üçün hazır vəziyyətdədir.

### İŞ QABİLİYYƏTİ İLƏ BAĞLI MƏLUMATLAR HAVA KEYFİYYƏTİ

**Ucrete®** *"Indoor Air Comfort Gold Label"* sertifikatı ilə mükafatlandırılmışdır.

Keyfiyyətin idarəolunması və istehsal nəzarət prosedurlarına əsasən uçucu maddə tərkibi (VOC) sınaqdan keçirilmiş və sertifikalandırılmışdır.

**Ucrete® məhsulunun** qidalara keçməməsi və tərkibində işçi heyətin sağlamlığına təsir göstərəcək hər hansı bir uçucu maddənin olmaması onun son dərəcə təmiz bir məhsul olduğunu göstərir.

Bütün **Ucrete®** məhsulları çox zəif səs vibrasiyası göstəricilərinə sahib olması ilə AgBB (Almanya), Afsset (Fransa) və M1 (Finlandiya) kimi bir çox daxili məkanlar üçün vibrasiya ehtiyaclarını qarşılayaraq "A+" olaraq qiymətləndirilir. Daha ətraflı məlumat almaq üçün **Master Builders Solutions Azerbaijan** şirkətinin texniki xidmətinə müraciət olunmalıdır.

### TEMPERATUR DAYANIQLIĞI

**Ucrete® MF** üzlükləri 70°C temperaturundakı mayenin səthə sıçraması və tamamilə səthə boşaldılmasına qarşı dayanıqlıdır. Bundan əlavə, - 15°C dondurucu üçün də uyğundur.

### QİDALARIN QOXU VƏ DADINI KORLAMAMASI

**Campden Technology Ltd**. tərəfindən də sınaqdan keçirildiyi kimi komponentləri qarışdırıldıkdan sonra qidaların qox və dadını korlamamaqdadır.

### KİMYƏVİ DAYANIQLIĞI

**Ucrete® MF** çox geniş çeşiddə təhlükəli kimyəvilər üçün mükəmməl dayanıqlılıq təmin edir. **Ucrete®** aşağıda qeyd olunmuş tez-tez rast gəlinən kimyəvilərin sıçrayışlarına qarşı da dayanıqlılıq göstərir. Misal üçün, sirkə turşusu, süd turşusu, olefin turşuları və limon turşusu kimi qida sənayesində çox tez-tez rastlanan həll olunmuş və yüksək qatılıqlı üzvi turşulara qarşı dayanıqlılıq nümayiş etdirir.

Həll edilmiş və yüksək qatılıqlı turşular: Hidroxlor turşusu, Nitrat turşusu, Fosfat turşusu və Sulfat tuşusu.

Həll olunmuş və yüksək qatılıqlı qələvilər, 50% qatılıqda Natirum Hidroksid.

Heyvan mənşəli yağlar və bitki yağları, şəkər aromatizatorları və efir yağları.

Mineral yağlar, təyyarə yanacağı, benzin və hidravlik yağlar. Metanol, ksilol və xlorlu həlledicilər kimi üzvi həlledicilər.

Qeyd: Bəzi kimyəvilərin sıçramasından yarana biləcək təbii hallar və təmizləmə qüsurları səbəbindən səthdə ləkələnmə və rəng dəyişiklikləri müşahidə oluna bilər. Genişləndirilmiş kimyəvi dayanıqlılıq cədvəli mövcuddur.

Ətraflı məlumat üçün regional **Master Builders Solutions inşaat kimyəviləri** bölməsi ilə əlaqə saxlayın.

Qeyd: Bəzi kimyəvilərin sıçramasından yarana biləcək təbii hallar və təmizləmə qüsurları səbəbindən səthdə ləkələnmə və rəng dəyişiklikləri müşahidə oluna bilər.

### ZƏRBƏYƏ DAYANIQLILIQ

Yüksək mexaniki müqaviməti və aşağı elastiklik modulu ilə,**Ucrete** sistemləri çox dayanıqlıdır və şiddətli zərbələrə qarşı dayanıqlılıq göstərirlər. Nadir hallarda səthdən kiçik parçaların qopması müşahidə oluna bilər, lakin **Ucrete** örtüyündə hər hansı bir qopma və alt səthdən ayrılma görülməyəcəkdir.

### ALT SƏTHİN NƏMƏ QARŞI DAYANIQLIĞI

**Ucrete® sənaye tipli örtüklər** döşəmədən gəlməkdə olan nəmin kifayət qədər qarşısını alır və 7 günlük təzə beton və ya yaxşı keyfiyyətdəki çox nəmli köhnə betonlar üzərinə nəm keçirməyən membran xüsusiyyəti daşıyan, xüsusi astarlar istifadə etmədən tətbiq oluna bilir.

Bu xüsusiyyəti ilə sürətlə tətbiq olunmağa və nəm sahələrdə sürətli şəkildə yenilənmələrə imkan verir.

Epoksid səthli nəm keçirməyən membranların yüksək temperaturlarda yumşalmaları səbəbindən istifadə olunmaması daha düzgündür və bu məhsullar səthin korlanmasına səbəb ola bilir.

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP

# Ucrete® MF

## Yüksək performanslı, poliuretan beton səth örtüyü

### HOPDURMA

**Ucrete® MF** məhsulu CPBM2/67/2 standartlarına əsasən həyata keçirilən sınaqlar nəticəsində sıfır hopdurma nümayiş etdirmişdir.

### TƏMİZLİK VƏ GİGİYENA

**Ucrete® döşəmə sistemləri** HACCP "Qida Təhlükəsizliyi Sistemləri" ilə idarə edilməkdə olan müəssisələr üçün nəzərdə tutulur.
**Ucrete® MF** məhsulu, standart sənaye təmizlik kimyəviləri və avadanlıqları ilə təmizlənir. Qida sənayesində standart yuyucu və qurulayıcı aparata ehtiyac vardır.
**Campden Technology Ltd** şirkətinin nəzarətində həyata keçirilmiş *"Acinetobacter Calcoaceticus"*ların səthdən kənarlaşdırılmasına dair sınaqlarda **Ucrete® MF** məhsulunun paslanmayan polad ilə eyni şərtlərdə təmizlənə bilmə xüsusiyyətinə malik olduğu nəticəsi əldə olunmuşdur.
Müntəzəm təmizlik və qulluq, hər növ döşəmənin istismar müddətinin uzadılmasını və mövcud görüntüsünün qorunmasını təmin edir.

### SÜRÜŞMƏ MÜQAVİMƏTİ

**Ucrete® MF** sistemlərinə malik təbəqələr aşağıda da qeyd olunduğu kimi nəm təbəqələr üzərində 4S kauçuk ilə həyata keçirilmiş və EN13036 Bölmə 4-də qeyd olunmuş sürtünmə əmsalına malikdir;
**Ucrete® MF** sistemlərinin səth şərtləri DIN51130 standartının tələblərinə cavab verir:
**Ucrete® MF** R10 V - optimal sürüşmə müqaviməti yalnız müntəzəm təmizlik sayəsində qoruna bilər.

### RƏNGLƏR

**Ucrete® MF** səkkiz standart rəngdə olur.
Qırmızı, sarı, yaşıl, narıncı, boz, krem, mavi, yaşıl/qəhvəyi.

**Ucrete® örtük sistemləri** çox yüksək kimyəvi və temperatur dayanıqlıqlarını təmin etmək üçün xüsusi olaraq hazırlanmışdır. Birbaşa ultrabənövşəyi şüaların təsirində olan və məhsulun tətbiq olunduğu səthlərdə saralma təsirləri müşahidə oluna bilər. Bu hal, açıq rənglərdə çox görülən bir vəziyyətdir.

### ALT SƏTHİN KEYFİYYƏTİ

Beton alt təbəqələri quru görünüşdə və minimum 1.5 MPa gərilmə dayanıqlığında olmalıdır.
İstinad olaraq '**Ucrete®** Sənaye Döşəmələri üçün Dizayn və Alt Səth Hazırlıqları" təlimatnaməsinə müraciət oluna bilər.
Alt səthdəki betonda olan hərəkət birləşmələri **Ucrete®** tətbiq olunduğu hissədə ən üst təbəqəyə qədər daşınmalı və müvafiq mastika ilə doldurulmalıdır.

### TƏTBİQ ŞƏRTLƏRİ

Tətbiqdən sonra mükəmməl nəticə ala bilmək üçün material, alt səth və hava temperaturu qeyd olunan 15–25ºC intervalında olmalıdır. **Ucrete® MF** geniş bir temperatur intervalında effektiv şəkildə bərkiyəcəyi zaman, müvafiq ətraf mühit şərtlərində optimal görünüş və profil asanlıqla əldə olunur.
Aşağı temperaturlar məhsulun bərkiməsini gecikdirəcək və səth görüntüsünün korlanmasına səbəb olacaqdır.
Yüksək temperaturlar materialın tətbiq müddətlərini qısaldacaq və yenə də səthin görüntüsünün korlanmasına səbəb olacaqdır.
Kondensasiya və aşağı temperaturlar səthdə ağ ləkələrə səbəb ola bilər.

### SƏRFİYYAT

| İstifadə məqsədi | İstifadə olunan material | Sərfiyyat (kq/m$^2$) |
|---|---|---|
| Qaşınma astar | **Ucrete® MF** | 1.00-2.00 |
| Üzləmə | **Ucrete® MF** | 7.00-14.00 |

### BƏRKİMƏ

Normal şərtlərdə **Ucrete® MF** tətbiq olunmuş səthlər 24 saat sonra istifadəyə verilə bilər.

### SAXLAMA

Qapalı saxlama şəraitində, 5ºC - 30ºC temperaturları arasında və birbaşa günəş işıqlarından uzaq vəziyyətdə saxlanılmalıdır. Məhsullar döşəmədən yüksəkdə və quru saxlanılmalıdır. Maye komponentlər donmaya qarşı qorunmalıdır.

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP

# Ucrete® MF

## Yüksək performanslı, poliuretan beton səth örtüyü

### LƏĞV EDİLMƏ

2-ci hissə komponentinin qabları 5%-lik sodium karbonat (yuyucu soda) həlledicisi ilə təmizləndikdən sonra yerli inşaat tullantıları qaydalarına əsasən aradan qaldırılmalıdır.

### XƏBƏRDARLIQLAR VƏ GÖRÜLƏCƏK TƏDBİRLƏR

**Ucrete®** bərkiməsini tamamladıqdan sonra fizioloji olaraq təhlükəsiz kateqoriyaya aid edilməkdədir.
Səthə normal tətbiq işlərində **Ucrete®** məhsulunun bütün tətbiq prosesi ərzində hər hansı bir tənəffüs qoruyucu avadanlığa ehtiyac duyulmur.
İşçilər CoSHH risk qiymətləndirilmələrinə və özlərinə aid iş təlimatlarına əməl etməlidirlər.

| Texniki göstəricilər | |
|---|---|
| Sıxlığı | 1970 kg/m³ |
| Təzyiqə qarşı dayanıqlığı (EN13892-2) | 48-53 Mpa |
| Gərilmə dayanıqlığı (BS6319 Bölüm 7) | 9 Mpa |
| Əyilməyə qarşı dayanıqlığı (EN13892-2) | 18-21 Mpa |
| Sıxılma Modulu (BS 6319: Bölmə 6) | 3250-4000 Mpa |
| Betona Birləşmə dayanıqlığı (EN13892-8) | Beton zədəsi |
| Temperatur genişlənmə əmsalı (ASTM C531: Bölmə 4.05) | 3.6 x $10^{-5}$ $^{o}C^{-1}$ |
| Yanğın dayanıqlığı (EN13501: Bölmə 1) | BFL – S1 |
| **Qeyd :** Məhsul nümunəsi 20°C temperaturda 28 gün bərkidilmişdir. | |

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır. **“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır. Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.

**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

# Ucrete® MF

## Yüksək performanslı, poliuretan beton səth örtüyü

**Master Builders Solutions Yapı Kimyasalları Sanayi ve Ticaret Ltd. Şti.**
Ünvan: Barbaros Mah. Begonya Sok. Nidakule Kuzey Ataşehir, C Kapısı
No:3 E/5, 34746 Ataşehir İstanbul
**20**
**DOP NO: 04.13813.017**

**EN 13813: 2002 SR-C50-F15-AR0,5-B2,0-IR30**
**Ucrete MF**
**Beton yayma materialları və döşəmənin hamarlanması)**
**Yüksək iş qabiliyyətli, hamar səthli poliuretan beton üzlük**

| | |
|---|---|
| Yanğına dayanıqlılıq (Reaction to Fire) | $B_{FL}$ – $S_1$ |
| Təzyiqə dayanıqlılıq (Compressive Strength) | C50 N/mm² |
| Əyilməyə qarşı dayanıqlılıq (Flexural Strength) | F15 N/mm² |
| Aşınmaya qarşı dayanıqlılıq (Wear Resistance) | AR 0,5 |
| Birləşmə möhkəmliyi (Bond Strength) | B > 2,0 N/mm2 |
| Zərbəyə dayanıqlılıq (Impact Resistance) | IR30 Nm deformasiya yoxdur |

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır. **“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır. Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.


**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az


A brand of MBCC GROUP